# Oksford Universiteti

Oksford Universiteti (University of Oxford) dünyanın ilk, ingilisdilli ölkələrin isə ən qədim universiteti hesab edilir. Bu gün universitet təlim, tədris və tədqiqat sahələri üzrə aparıcı təhsil ocağı kimi yüksək nüfuza malikdir. Böyük Britaniyanın "Times Higher Education" şirkətinin 2015-2016-cı tədris ili üçün dünyanın ən yaxşı universitetlərinin reytinq sıralamasında Oksford Universiteti 2-ci, "QS World University Rankgins" jurnalının 2015-2016-cı tədris ili üçün reytinq sıralamasında isə 6-cı yerdə qərar tutub. Oksford Universiteti Böyük Britaniya universitetlərinin elmi-tədqiqat şəbəkəsi olan Rassel Qrupunun, Beynəlxalq Tədqiqat Universitetləri Alyansının, Avropanın 40 universitetinin təmsil olunduğu Koimbra Qrupunun, Avropa Tədqiqat Universitetləri Liqasının, Avropa Universitetləri Assosiasiyasının üzvüdür. Universitet həmçinin Böyük Britaniyanın ən yaxşı tədqiqat universitetlərini özündə birləşdirən "Qızıl üçbucağ"ın üzvüdür.

**Yerləşir:** Böyük Britaniya, Oksford
**Yaradılıb:** 1167-ci ildə
**Tip:** Kütləvi
**Ümumi gəlirləri:** 1,429.3 milyard funt-sterlinq
**Ümumi xərcləri:** 1,238.3 milyard funt-sterlinq
**Tələbələrin ümumi sayı:** 24640 nəfər
**Rəsmi saytı:** www.ox.ac.uk



## Tarixi

Oksford Universitetinin dəqiq yaranma tarixi məlum deyil. Qədim mənbələrdəən 1096-cı ildə universitetdə tədris aparıldığı məlum olub. XII əsrdən etibarən Oksford Universiteti ali təhsil ocağı kimi inkişaf etməyə başlayır və bu proses 1167-ci ildən sonra daha da sürətlənib. Universitetin sürətli inkişafına təkan verən amil həmin ildə Paris Universitetinin əcnəbi müəllimlərin universitetdən kənarlaşdırılması haqqında qərar qəbul etməsi olub. Belə ki, müvafiq qərardan sonra ingiltərəli alimlər Fransadan qayıdaraq kütləvi şəkildə Oksfordda məskunlaşıblar. Kral II Henri daha ciddi addım ataraq ingiltərəli tələbələrin Paris Universitetində təhsil almasına qadağa qoyub. Oksford Universitetində ilk mühazirəni 1188-ci ildə Uelsli Cerald oxuyub. 1190-cı ildə frizilendli Emo ilk əcnəbi alim kimi universitetdə çalışıb. 1201-ci ildən etibarən universitetə rəhbərlik edən şəxs kansler, 1231-ci ildən isə universitet əməkdaşları korporasiya adlandırılıblar. Universitetin ilk kansleri Robert Qrossetes olub. Oksford Universitetinin təşəkkül tapdığı ilk vaxtlardan başlayaraq tələbələrlə şəhər əhalisi arasında ixtişaşlar baş verib. Buna səbəb şəhər əhalisinin evlərində məskunlaşan tələbələrin yüksək kirayə haqqı ödəməsi və ərzaq məhsullarının onlara baha qiymətə satılması olub. Artan gərginlik tələbə yataqxanalarının yaradılması zərurətini meydana çıxarıb. XIII əsrin əvvəllərində universitetin ilk yataqxanaları yaranmağa başlayıb və sonralar bu yataqxanalar Oksford Universitetinin kolleclərinə verilib. Ali məktəbin ilk kollecləri Universitet (1249), Balliol (1263), Merton (1264) kollecləridir. Universitet bir əsrdən az vaxt ərzində inkişaf edərək digər təhsil ocaqlarını geridə qoyub. Universitet öz təhsil proqramları, doktrinası, eləcə də digər üstünlükləri ilə Papanın, kralların, alimlərin rəğbətini qazanıb. 1355-ci ildə Kral III Edvard ali məktəbin təhsil sahəsinə verdiyi töhfələri alqışlayaraq məşhur məzunlarının göstərdiyi xidmətləri yüksək dəyərləndirib. XV əsrin sonlarından intibah dövrü bu ali məktəbə də təsir göstərməyə başlayıb. Universitetin tədris metodikası orta əsr metodundan "intibah tədrisi" metoduna keçib. 1636-cı ildə universitetin kansleri - Kenterberi arxiyepiskopu Vilyam Lod ali məktəbin nizamnaməsini rəsmiləşdirir. Həmin nizamnamə XIX əsrin ortalarına qədər universitetin əsas nizamnaməsi olaraq qalır. Bundan əlavə, V.Lod universitetin əsas kitabxanası olan Bodleyn kitabxanasına külli miqdarda kitab bağışlayır. 1642-1649-cu illərdə İngiltərədə baş vermiş vətəndaş müharibəsi zamanı şəhər əhalisi parlament tərəfində dursa da, ali məktəb Royalist Partiyasının mərkəzinə çevrilib. Həmin dövrdə puritanlar universitet təhsilinin dini əqidə üçün təhlükə hesab etdiklərindən Oksford və Kembric universitetlərinin bağlanmasını istəyiblər. Bunun qarşısını almaq görkəmli sərkərdə, dövlət xadimi və 1650-1657-ci illərdə Oksford Universitetinin kansleri olmuş Oliver Kromvelə tapşırılıb. XIX əsrdə universitetdə həyata keçirilən islahatlar nəticəsində şifahi qəbul imtahanları yazılı imtahanla əvəz edilib. Eyni zamanda 4 yeni kollec yaradılıb. 1920-ci il oktyabrın 7-də qızlar universitetin tələbəsi adını, habelə elmi dərəcə almaq hüququ əldə ediblər.

## Universitet bu gün

Oksford Universitetinin 38 kolleci var. Onlardan hər birinin özünəməxsus daxili strukturu və fəaliyyət istiqaməti mövcuddur. Universitetin kolleclərinin rəhbərlərini rektor, direktor, prezident, dekan və digər bu kimi adlarla adlandırırlar. Kolleclərin müəllim heyətinə ümumiyyətlə "don" adı verilib. Lakin universitetin professorlarına müraciət edilərkən bu addan az istifadə olunur. Ali məktəbin bütün kollecləri tələbə qəbulunu həyata keçirir. Təhsil, idman məşğələləri, asudə vaxtın səmərəli təşkili məsələləri ilə məşğul olur. Universitet isə tələbələri və kitabxana və laboratoriyalarla təchiz, kitab və cəmiyyətlər təşkil edir, tədris planlarını təsdiqləyir, imtahanları müəyyən edir və keçirir, həmçinin elmi dərəcələr verir. Doktorantların qəbulu və təhsili kimi məsələləri isə universitetin departamentləri həll edir. Kolleclərdə ilahiyyat, fəlsəfə, tarix, coğrafiya, ingilis dili və ədəbiyyat, arxeologiya, antropologiya və digər sosial elmlər, hüquq, müasir dillər, şərqşünaslıq, riyaziyyat, təbiət elmləri, musiqi, tibb və digər müxtəlif fənlər tədris olunur. Universitetin kollecləri bunlardır: Universitet Kolleci (1249), Balliol Kolleci (1263), Merton Kolleci (1264), Ekseter Kolleci (1314), Müqəddəs Edmund Hol (1317), Oriel Kolleci (1326), Kuinz Kolleci (1341), Nyu Kolleci (1379), Linkoln Kolleci (1427), Ol Soulz Kolleci (1438), Modlin Kolleci (1458), Braznouz Kolleci (1509), Korpus Kristi Kolleci (1517), Krayst Çörç Kolleci (1524), Triniti Kolleci (1555), Müqəddəs Cons Kolleci (1555), Cizus Kolleci (1571), Uodem Kolleci (1610), Pembruk Kolleci (1624), Vuster Kolleci (1714), Ricents Park Kolleci (1810), Kibl Kolleci (1870), Hartford Kolleci (1874), Samervil Kolleci (1879), Müqəddəs Anna Kolleci (1879), Müqəddəs Nyu Kolleci (1886), Mansfild Kolleci (1886), Müqəddəs Hilda Kolleci (1893), Müqəddəs Piter Kolleci (1893), Naffild Kolleci (1937), Müqəddəs Entoni Kolleci (1950), Müqəddəs Katerian Kolleci (1962), Linakr Kolleci (1962), Müqəddəs Kros Kolleci (1965), Volfson Kolleci (1966), Kelloq Kolleci (1990), Haris Mançester Kolleci (1996), Qrin Templton Kolleci (2008). Bundan əlavə, universitetdə Blekfrayarz (1221), Müqəddəs Stiven Evi (1876), Uiklif (1877), Ledi Marqaret (1878), Kempien (1896), Müqəddəs Benets (1897) holları fəaliyyət göstərir. Bu təhsil müəssisələrində əsasən ilahiyyat, tarix, fəlsəfə, coğrafiya, arxeologiya və antopologiya, şərqşünaslıq, hüquq, iqtisadiyyat, siyasi elmlər, ingilis dili və ədəbiyyatı, klassik və Britaniya tarixi fənləri tədris olunur, habelə dini təhsil verilir.

Universitetin bütün kolleclərinin nəzdində kitabxanalar fəaliyyət göstərir. Təhsil ocağının 1598-ci ildə Tomas Bodleyn tərəfindən yaradılmış Bodleyn kitabxanası 1602-ci ildə fəaliyyətə başlayıb. Londonda yerləşən Britaniya kitabxanasından sonra ölkənin ikinci ən böyük kitabxanasıdır. Kitabxananın yüksək əhəmiyyətə malik kolleksiyaları arasında ölkənin 6 baş nazirinin sənədləri, Qutenberq İncili, ingilis dilində yazılmış qədim kitab, 1215-ci ildə qəbil edilən və İngiltərədə kral hakimiyyətinin məhdudlaşdırılmasını nəzərdə tutan ilk sənədin - "Böyük azadlıq xartiyası"nın (Magna Carta) dünya üzrə ən qədim nüsxəsi, 10 minədək orta əsrlər və intibah dövrünə aid əlyazmalar saxlanılır. Kitabxanada 12 milyondan artıq kitab, 19 oxu zalı, oxucular üçün 192490 yer mövcuddur. Universitet özünün Botanika bağı ilə də məşhurdur. Oksford Universitetinin Nəşriyyatı dünyada ən böyük universitet nəşriyyatıdır. İlk kitab burada 1478-ci ildə nəşr olunub. 1586-cı ildə universitetə rəsmi şəkildə kitab nəşr etmək hüququ verilib. Hazırda nəşriyyatın dünyanın 50-dən artıq ölkəsində ümumilikdə 5 mindən çox işçisi var.

## İdarəçilk

Universitetin ali idarəetmə orqanı Konvokasiyadır (Universitet Şurası). Şuranın 26 üzvü var. Onlardan 22-si kollecləri təmsil edir. Ali məktəbin təhsil siyasəti və strategiyasının müəyyənləşdirilməsi işi ilə Universitet Şurası məşğul olur. Şura 5 əsas komitə vasitəsilə (Təhsil, Ümumi məqsədlər, İşçi heyət, Planlaşdırma və ehtiyatların paylanması, Tədqiqat) fəaliyyət göstərir. Universitetin formal rəhbərlik, Böyük Britaniyanın əksər universitetlərində olduğu kimi, ömürlük seçilən və ali məktəbdə keçirilən bütün rəsmi tədbir və toplantılara sədrlik edən kansler (rektor) tərəfindən həyata keçirilir. Hazırda universitetin kansleri lord Kris Pattendir. Universitetin faktiki rəhbəri vitse-kansler (prorektor) 7 il müddətinə seçilir. Təhsil ocağının indiki vitse-kansleri Luiza Riçardsondur. O, universitet tarixində bu vəzifəyə təyin olunmuş ilk qadındır. Vitse-kansler özünün 3 müavini ilə administrativ məsələləri həll edir və ali məktəbin büdcəsinin planlaşdırılması ilə məşğul olur. Ali məktəbin rəhbər orqanlarından biri də bütün administrasiya heyətinin və müəllimlərin təmsil olunduğu Konqreqasiyadır. Bu qurum qanunvericilik funksiyasını daşıyır. Qurumun 5000-dən artıq üzvü var. Gündəlik maliyyə və məişət problemlərinin həlli humanitar, təbiət, riyaziyyat, fizika, tibb və sosial elmlər daxil olmaqla 5 akademik bölməyə həvalə olunub. Maliyyə cəhətdən universitet tamamilə dövlət və özəl yatırımlarından asılıdır. Bu vəsaitlər universitet büdcəsinin 1/3-ni təşkil edir. Universitetdə təhsil haqları Avropada ən yüksək olması ilə seçilir.

## Büdcəsi və təhsil haqları

Oksford Universitetində tədris ili üç semestrə bölünür. Birinci semestr (Michaelmas Term) oktyabr ayından dekabra qədər, ikinci semestr (Hilary Term) yanvar ayından marta, üçüncü semestr (Trinity Term) isə aprel ayından iyun ayınadək davam edir. Tarixi ərzində Oksford Universitetində 140 ölkədən tələbələr təhsil alıb. 2016-cı ilin statistık məlumatına əsasən, Oksford Universitetinini endaument fondu 2014-2015-ci tədris ilində 4.776 milyard funt-sterlinq təşkil edib. 2014-2015-ci tədris ilində universitetin ümumi gəlirləri 1,429.3 milyard funt-sterlinq, ümumi xərcləri isə 1,238.3 milyard funt-sterlinq olub.

Universitetdə Böyük Britaniya və Avropa Birliyi ölkələrindən olanlar üçün illik təhsil haqları ilə AB-yə daxil olmayan ölkələrdən oxumağa gələnlərin təhsil haqları fərqlidir. 2015-2016-cı tədris ili üçün Böyük Britaniya və AB-yə daxil olan ölkələrdən olan tələbələr üçün illik təhsil haqları 9 min funt-sterlinq, əcnəbi tələbələr üçün isə 15295-22515 funt-sterlinqdir. Tələbələrin 41 faizi əcnəbidir. Aspirantların 63 faizi digər ölkələrin vətəndaşlarıdır. Oksford Universitetində 24640 tələbə təhsil alır. Universitetdə tələbə-müəllim nisbəti 11:6-dır. Tələbələrin 34 faizi əcnəbidir. Professor-müəllim heyəti orta hesabla 6221 nəfərdir, onların 1790-ı əcnəbidir. Statistikaya görə, məzunların 91 faizi aldıqları təhsilin keyfiyyətindən məmnundur. Universitetə ilkin qəbul haqqı 60 funt-sterlinq təşkil edir. Maraqlıdır ki, abituriyentlər həm Oksford, həm də bu ali təhsil ocağının əzəli rəqibi olan Kembric Universitetinə eyni vaxtda sənəd verə bilməz. Oksford Universitetinə hər bir qəbul yerinə 5 abituriyent iddialıdır.

## Oksford Universiteti və Azərbaycan

Oksford Universitetinin Azərbaycanla sıx əlaqələri formalaşıb. Böyük Britaniyanın bu qədim elm mərkəzi ilə elmi əlaqələrin inkişafında M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Bakı filialının rektoru, filologiya elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü Nərgiz Paşayevanın xüsusi əməyini qeyd etmək lazımdır. Professor N.Paşayevanın təşəbbüsü ilə 2013-cü ildən başlayan çox uğurlu, məsuliyyətli, eyni zamanda, şərəfli bir layihənin - Oksford Universiteti nəzdində Nizami Gəncəvi adına Azərbaycanşünaslıq və Qafqazşünaslıq Mərkəzinin yaradılması mühüm elmi hadisədir. Azərbaycanın qədim və zəngin tarixinin dünyaya düzgün çatdırılması kimi mühüm missiya daşıyan mərkəz bu gün Azərbaycan ərazisində mövcud olan qədim mədəniyyət və dilləri öyrənmək məqsədilə yaradılmış yeganə elmi mərkəzdir. Professor Nərgiz Paşayeva ölkəmizi Oksford Universitetinin şərqşünaslıq fakültəsində təmsil edən ilk azərbaycanlı alimdir. Bu təmsilçilik qədim tariximizin məhz müasir Azərbaycana məxsusluğunu göstərmək, elmi yolla sübut etmək məqsədi daşıyır. Mərkəzin fəaliyyəti Azərbaycan ərazisində qədim şəhərlərin olduğu yerlərdə sovet dövründə və ondan sonra aparılan arxeoloji qazıntıların ilkin xəritəsinin hazırlanması, birgə elmi konfrans və seminarlar keçirilməsi, Azərbaycan alimlərinin Oksford Universitetinin şərqşünaslıq fakültəsində təhsili üçün imkanların yaradılması, Nizami Gəncəvi adına Azərbaycanşünaslıq və Qafqazşünaslıq Mərkəzi tərəfindən üç magistr və üç aspirantı əhatə edən təhsil proqramı, habelə Nizami Gəncəvi adına təqaüdlərin verilməsi kimi əsas istiqamətləri nəzərdə tutur.



*Oksford Universitetinin Nizami Gəncəvi səhifəsi*


*Oksfordun 2015-ci il məzunları*


*Universitetin Bodleyn kitabxanası*

Qeyd edək ki, Nizami Gəncəvinin Oksford Universitetinin Bodleyn kitabxanasının əlyazmalar fondunda saxlanılan "Xəmsə"sinin XVI əsrdə tərtib olunmuş əlyazmasının elektron versiyasından nəfis tərtibatda hazırlanmış nüsxə AMEA-nın kitabxanasına hədiyyə edilib. Xatırladaq ki, bu elektron versiya 2013-cü ildə professor Nərgiz Paşayevaya Bodleyn kitabxanasında verilib. Oksford Universitetinin rəsmi saytında Nizami Gəncəvi adına Azərbaycanşünaslıq və Qafqazşünaslıq Mərkəzi səhifəsi mövcuddur.

## Oksfordun məşhurları

Oksford Universitetinin müəllimləri və məzunları arasında 40 Nobel mükafatı laureatı və Böyük Britaniyanın 26 baş naziri, 6 kral, 12 din xadimi, 50 olimpiya qalibi, dünyanın 100 ən yaxşı biznes şirkətlərinin 20 direktoru, minlərlə siyasətçi, alim, ədəbiyyat və incəsənət xadimləri var. Məşhurlardan Marqaret Tetçer, Lyus Kerroll, Con Tolkin, Klayv Stepl Lyus, Toni Bleyer və digərləri burada təhsil almış və müəllimlik etmişlər. Məzunlardan müasir nəzəri fizika və kosmologiyanın görkəmli nümayəndələrindən Stiven Hokinkin adını göstərmək olar.

Universitetin ən görkəmli məzunu və akademikləri sırasında Britaniyanın altı baş naziri - Vilyam Qladston, Herbert Askvis, Klement Atli, Harold Makmillan, Harold Vilson, Marqaret Tetçer və Toni Bleyer, Devid Kemeronun adlarını çəkmək olar. Digər ölkələrdən 30-a yaxın siyasət və ictimai xadim ali təhsillərini Oksford Universitetində başa vurublar. Onların arasında ABŞ-ın sabiq prezidentlərindən Bill Klintonun, Avstraliyanın 5 sabiq baş nazirinin (Con Qorton, Malkolm Freyzer, Bob Xouk, Toni Ebott, Malkolm Ternbull), Kanadanın sabiq 2 baş nazirinin (Lester Pirson və Con Terner), Hindistanın sabiq iki baş nazirinin (Manmohan Sinhx və İndira Qandi), Pakistanın sabiq 5 baş nazirinin (Liakat Əli Xan, Hüseyn Şahid, Feroz Xan, Zülfüqar Əli Bhutto, Benazir Bhutto) və başqalarının adlarını çəkmək olar. Oksford Universitetinin 70 müəllimi Böyük Britaniya Kral Cəmiyyətinin, 100 nəfəri Britaniya Akademiyasının üzvləridir.

**Oruc MUSTAFAYEV,**
*"Azərbaycan müəllimi"*